# İŞIQ

*İctimai-siyasi qəzet*

| Qəzet 1930-cu ildən çıxır | ŞİRVAN ŞƏHƏRİ | №14 (7348) | 26 iyul 2014-cü il | Şənbə | Qiyməti 20 qəp. |
|---|---|---|---|---|---|


## Şirvan şəhərinin sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair əlavə tədbirlər haqqında

### AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının uğurla yerinə yetirilməsi sahəsində Şirvan şəhərində əsaslı infrastruktur layihələri yerinə yetirilmiş, o cümlədən şəhərin su və kanalizasiya sistemi yenidən qurulmuş, «Cənub» İstilik Elektrik Stansiyası inşa edilmiş, Olimpiya İdman Kompleksi, Müalicə Diaqnostika Mərkəzi, təhsil, mədəniyyət və digər sosial yönümlü obyektlər istifadəyə verilmiş, avtomobil yolları çəkilmiş, genişmiqyaslı abadlıq-quruculuq işləri aparılmış, sakinlərin yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.

«Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»nda Şirvan şəhəri üzrə nəzərdə tutulmuş əlavə tədbirlərin həyata keçirilməsi, o cümlədən şəhərin Bayramlı qəsəbəsində inşa edilən 2 mərtəbəli 12 mənzilli yaşayış binasının tikintisinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1.Şirvan şəhərində abadlıq-quruculuq işlərinin davam etdirilməsi və Bayramlı qəsəbəsində inşa edilən yaşayış binasının tikintisinin başa çatdırılması məqsədi ilə Şirvan Şəhər İcra Hakimiyyətinə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 1,0(bir) milyon manat ayrılsın.

2.Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
**Bakı şəhəri, 18 iyul 2014-cü il**

## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN 1969-CU İLDƏ SİYASİ HAKİMİYYƏTƏ GƏLMƏSİNİN 45-Cİ İLDÖNÜMÜ QEYD EDİLDİ




Bu münasibətlə Şirvan Olimpiya İdman Kompleksində ümumşəhər tədbiri keçirilmişdir.

Öncə Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov, Şura üzvləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, ictimaiyyət nümayəndələri ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzi meydanında ucaldılan abidəsini ziyarət etmiş, abidə önünə gül-çiçək dəstələri düzmüşlər.Ulu öndərin əziz xatirəsi ehtiramla yad edilmişdir.

Sonra Şirvan Olimpiya İdman Kompleksinin zalında şəhər icra hakimiyyətinin başçısı M.T.Camalov məruzə etmişdir. Başçı demişdir ki, Azərbaycan xalqının həyatında 14 iyul mühüm əhəmiyyət kəsb edən tarixi bir gündür. Düz 45 il bundan öncə - 14 iyul 1969-cu ildə ümummilli lider Heydər Əliyev respublikamızın rəhbəri seçilmişdir.

Ulu öndərimiz Heydər Əliyev 1969-cu ilə kimi dövlət təhlükəsizlik orqanlarında müxtəlif vəzifələrdə işləmiş, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəlmiş, həmin Komitənin milliyyətcə ilk azərbaycanlı generalı olmuşdur. Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərliyi dövründə milli kadrların hazırlanmasına və müxtəlif rəhbər vəzifələrə irəli çəkilməsinə nail olmuşdur.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin plenumunda Heydər Əlirza oğlu Əliyevin respublika rəhbəri seçilməsi ilə ölkəmizin tarixində keyfiyyətcə yeni bir mərhələ başladı. Heydər Əliyev ilk gündən Azərbaycan dövlətinin və xalqının milli maraqlarını hər şeydən uca tutaraq, böyük sosial-iqtisadi, elmi və ədəbi-mədəni inkişafa, müstəqil düşüncəyə yol açdı. Qısa zaman kəsiyində Azərbaycan ittifaqın tərkibində o zaman üçün müasir iqtisadi potensiala malik, inkişaf edən respublikaya çevrildi. Məhz Heydər Əliyevin böyük səyi və qətiyyəti sayəsində ittifaq hökuməti Azərbaycanda xalq təsərrüfatının hərtərəfli yüksəlişini və intensiv inkişafını nəzərdə tutan beş xüsusi qərar qəbul etmişdir. Xalqımız üçün böyük tarixi əhəmiyyət kəsb edən bu mühüm qərarlar 70-80-ci illərdə və daha sonrakı perespektivdə ölkəmizin sosial-iqtisadi inkişafının əsas istiqamətləri üzrə kompleks məsələləri müəyyənləşdirmişdir. Həyata keçirilən qlobal miqyaslı işlər sayəsində 1976-1980-cı illərdə Azərbaycan sənayedə məhsul istehsalının artımına görə SSRİ-də birinci yerə çıxmışdı. XX əsrin 70-80-cı illəri Azərbaycan tarixinə sözün əsl mənasında, intibah dövrü kimi daxil olmuşdur.

Xalqımızın böyük oğlu siyasi hakimiyyəti möhkəmləndirir, azərbaycanlı kadrları müxtəlif vəzifələrə təyin edir, milli ruhu qaldırırdı. Mənsub olduğu xalqın milli müstəqillik duyğularının reallaşması, dünyanın ən inkişaf etmiş xalqları səviyyəsinə çıxması, zəngin milli mədəniyyətimizin bütün dünyada nümayiş etdirilməsi üçün əlindən gələni edirdi. Heydər Əliyev Azərbaycan dilinin dövlət dili statusu alması və zənginləşdirilməsi üçün bütün imkanlardan istifadə edirdi. Azərbaycan SSR-nin 1978-ci il konstitusiyasının 73-cü maddəsində Azərbaycan dilinə dövlət dili statusunun verilməsi, Heydər Əliyevin xalq, vətən qarşısında tarixi xidmətlərindəndir. Bu böyük şəxsiyyət sovet ideologiyasının bütün maneələrini adlayaraq Azərbaycanın milli inkişaf konsepsiyasını önə çəkirdi. Cəmiyyəti bütün sahələr üzrə yüksəlişlərə ruhlandırırdı. Ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqil dövlət olacağını qabaqcadan hiss edərək, ona lazımı zəmin yaratmaq üçün əzmkarlıq və uzaqgörənliklə fəaliyyət göstərirdi. Ulu öndərimizin respublika rəhbərliyinə gəlişi ilə başlanmış vüsətli tərəqqi istimai-siyasi, sosial-iqtisadi və mədəni həyatımızda köklü dəyişikliklərlə müşayiət olunurdu.



Azərbaycan keçmiş ittifaq dövlətinin ən qabaqcıl, iqtisadi cəhətdən müstəqil yaşamaq imkanına malik iki respublikadan biri olmuşdur.

Heydər Əliyev Azərbaycan xalqının maariflənməsinə, mükəmməl təhsil almasına, milli kadrların hazırlanmasına xüsusi önəm verirdi. Ali təhsil ocaqlarının sayı artırıldı. Azərbaycanlı qızların ali məktəblərə cəlb edilməsi məsələsinə xüsusi önəm verildi. Heydər Əliyev 15 min nəfərdən çox azərbaycanlı gəncin SSRİ-nin müxtəlif şəhərlərində yerləşən 170-dən artıq ən yaxşı ali təhsil ocaqlarında 244 ixtisas üzrə təhsil almalarına şərait yaratmışdır. Ali məktəblərə qəbul zamanı aşkarlığın, şəffaflığın təmin edilməsinə nail olurdu.

SSRİ-nin tərkibinə daxil olan respublikaları mərkəzdən asılı vəziyyətdə saxlamaq məqsədi ilə iri sənaye müəssisələrini çox vaxt Rusiyada inşa edirdilər. Lakin Heydər Əliyev dühası, onun şəxsi nüfuzu onlarla belə müəssisənin Azərbaycana gətirilməsinə səbəb oldu. Bakıda məişət kondinsonerləri, dərin özüllər zavodu, Gəncədə büllur, çini qablar, maşınqayırma, avtomobil zavodları, bizim şəhərimizdə Avtomatika və Telemexanika zavodu, Mexaniki Təmir İstehsalat Birliyi, Araz zavodu və başqa müəssisələrin tikintisi buna əyani misaldır.

Ümummilli lider Heydər Əliyevin gərgin fəaliyyəti sayəsində ölkə iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı təmin edilirdi.

Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP MK Siyasi Bürosunun üzvü olanda da ürəyi xalqımız üçün döyünürdü. Vətəninə, xalqına əvvəlkindən də artıq bir məhəbbətlə xidmət edirdi.

Heydər Əliyevin dünyanın iki super dövlətindən birinin rəhbərlərindən olması xalqımızın bəşəri miqyasda tanınmasına, onun milli lider kimi bütün xalq tərəfindən qəbul edilməsinə, milli azadlıq məfkurəsinin yeni mərhələsinin formalaşmasına səbəb oldu. Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri sayəsində illərdən bəri, qəlblərdə yuva salmış kor-koranə itaət məfkurəsi qətrə-qətrə əriməyə başladı. Bu həyatda təkamül, şüurda inqilab idi. Bu prosesin qarşısını almağa çalışan SSRİ-nin o vaxtkı rəhbərliyinin siyasi xəttinə etiraz əlaməti olaraq Heydər Əliyev 1987-ci ildə tutduğu vəzifədən istefa verdi. Yalnız bundan sonra ermənilər Azərbaycan torpaqlarına qarşı təcavüz planlarını, öz işğalçılıq niyyətlərini həyata keçirməyə başladılar. Qondarma Dağlıq Qarabağ problemi ortaya atıldı.

Xalqımızın milli azadlıq, müstəqillik uğrunda mübarizə əzmini qırmaq üçün Sovet ordusu 1990-cı ilin yanvar ayının 19-dan 20-nə keçən gecə Bakıya yeridildi. Bakıda tarixdə anoloqu olmayan kütləvi qırğınlar törədildi. Həmin vaxt Moskvada ciddi nəzarət altında olan Heydər Əliyev faciənin səhəri günü Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək mətbuat konfransı keçirdi. Bu dəhşətli hadisənin əsas günahkarları kimi SSRİ və respublika rəhbərliyini kəskin tənqid etdi. Faciəyə siyasi qiymət verdi. Onu dünya ictimaiyyətinə çatdırdı. Xalqımızın o ağır günlərində Heydər Əliyev Moskvada qərar tuta bilmədi. Respublikamıza gəldi. O dövrdə blokada şəraitində çox ağır sınaqlarla tək başına, taleyin ümidinə qalan Naxçıvana qayıdan Heydər Əliyevi əhali böyük sevinclə qarşıladı.

Ümummilli lider Heydər Əliyev Naxçıvanda milli dövlətçiliklə bağlı taleyüklü qərarlar qəbul etdi. 1990-cı ilin noyabrın 17-də ilk dəfə Naxçıvanda üç rəngli bayrağımız qaldırıldı. 1992-ci ilin noyabr ayının 21-də Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirldi. Ulu öndərin fəaliyyəti təkcə Naxçıvanla məhdudlaşmırdı. O, xalq deputatı kimi ölkə parlamentinin 1991-ci ilin mart ayında keçirilən iclasında cəsarətlə deyirdi: “Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpağını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır. Mən bu yoldan dönməyəcəyəm”.

Azərbaycan xalqı ulu öndərin göstərdiyi yolu tutdu. Xalqın tələbi ilə Azərbaycan Respublikasının Ali Soveti 18 oktyabr 1991-ci il tarixli sessiyasında Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul etdi.

Lakin dövlət idarəçiliyi təcrübəsi olmayan naşı adamların ölkəni idarə edə bilməməsi, erməni təcavüzünün güclənməsi iqtisadi böhrana səbəb oldu. Ölkədə xaos, anarxiya, özbaşınalıq baş alıb gedir, vətəndaş qarşıdurması yaranırdı. Torpaqlarımız ermənilər tərəfindən işğal olunurdu. Belə bir şəraitdə müdrik xalqımız Heydər Əliyevə müraciət etdi. Onu hakimiyyətə dəvət etdi. Xalqın təkidi, tələbi ilə yenidən hakimiyyətə qayıdan Heydər Əliyev vətəndaş müharibəsinin qarşısını aldı. Ölkədə sabitlik bərqərar oldu.

Ölkədə silahlı dövlət çevrilişlərinə göstərilən cəhdlərin qarşısı alındı, dünyanın nüfuzlu dövlətləri, neft şirkətləri ilə “Əsrin müqaviləsi” neft kontraktları imzalandı. Bütün sahələrdə islahatlar həyata keçirildi. Ölkədə hüquqi, demokratik təsisatlar formalaşdı, 1995-ci il noyabr ayının 12-də baş memarı ümummilli lider Heydər Əliyev olan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası referendum yolu ilə qəbul edildi.

Ümummilli lider Heydər Əliyevin müstəqil dövlətçilik siyasəti, siyasi kursu idarəetmə fəlsəfəsi, qurduğu müasir müstəqil Azərbaycan dövləti xalqımızın qürur mənbəyidir. Ulu öndərin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də özündən sonra möhtərəm Prezidentimiz İlham Əliyev kimi intellektual səviyyəli, dərin siyasi təfəkkürə malik, dövlət idarəçiliyini dərindən bilən bir şəxsiyyəti Azərbaycana bəxş etməsidir.

Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın dünyanın inkişaf etmiş ölkələri səviyyəsinə çıxması, regionda lider dövlətə çevrilməsi, sürətli inkişaf yoluna qədəm qoyması, dünyanın aparıcı dövlətləri, beynəlxalq qurumları ilə əlaqələrinin genişlənməsi, 2 il müddətinə BMT kimi nüfuzlu bir təşkilatın Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, sədrlik etməsi və Avropa Şurası Parlament Assambleyasının Nazirlər Kabinetinə sədrlik etməsi deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyevin şah əsəri - müstəqil Azərbaycan etibarlı əllərdədir.

Ulu öndərin siyasi xəttini uğurla davam etdirən möhtərəm Prezidentimiz bir daha təsdiqlədi ki, Heydər Əliyev siyasi strategiyasının alternativi yoxdur. Xalqımız əmindir ki, məhz ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi strategiya Azərbaycanın adını və bayrağını daha yüksək zirvələrə qaldıracaqdır.

Daha sonra «Shirvan Operating Company Ltd» şirkətinin Azərbaycan Respublikasındakı filialının meneceri İltizam Yusifov, «Cənub» Elektirik Stansiyasının direktoru Fəzail Süleymanov, Anadolu Universitetinin tələbəsi Yusif Poladov çıxış etmiş, ulu öndərin 1969-cu ildə hakimiyyətə gəlməsindən, onun Azərbaycanın tərəqqi, inkişaf və çiçəklənməsi istiqamətində həyata keçirdiyi möhtəşəm işlərdən geniş söz açmışlar.

Natiqlər onu da xüsusi qeyd etmişlər ki, şirvanlılar ulu öndərimizin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin Azərbaycanın inkişafı və tərəqqisi üçün atdığı addımları dəstəkləyir, hər zaman ona yardımçı olacaqlar.

Tədbirin sonunda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən iki film nümayiş olundu.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# ŞƏHƏRİMİZ 2014-CÜ İLİN 6 AYINDA

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasdakı proqram xarakterli nitqindən irəli gələn vəzifələr Şirvan şəhər İcra Hakimiyyətinin iclasında geniş müzakirə olunmuşdur.**




Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov tədbiri açmış və geniş nitq söyləmişdir. Başçı qeyd etmişdir ki, iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2014-cü ilin birinci yarısında ölkəmizin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş geniş iclası keçirilmişdir.

İclasda birinci yarımilliyin sosial-iqtisadi inkişafının yekunları geniş müzakirə edilmiş, dəyərli tövsiyələr və tapşırıqlar verilmişdir.

2014-cü ilin I yarımilliyin sosial-iqtisadi inkişafının yekunları ilə tanış olarkən bir daha görürük ki, müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin ideyaları möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir və möhkəmləndirilir. Hörmətli Prezidentimizin daxili və xarici siyasəti öz bəhrələrini verir.

Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi Azərbaycan iqtisadiyyatının yüksək sürətlə inkişafı davam edir. Bu gün Azərbaycanda aparılan iqtisadi islahatlar nəticəsində iqtisadi və sosial məsələlərin həllində böyük nailiyyətlər əldə olunur.

Əvvəlki illərdə olduğu kimi cari ilin birinci yarımilində də ölkəmizin sosial-iqtisadi inkişafı davam etmiş, iqtisadi siyasətin prioritet istiqamətləri olan makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi, sənaye potensialının gücləndirilməsi, regionların tarazlı inkişafı, əlverişli biznes və investisiya mühitinin formalaşdırılması və digər sahələrdə əhəmiyyətli işlər görülmüş, nəticədə əhalinin rifahının yüksəlməsi davam etmişdir.

Bu davamlı inkişaf ümummilli lider Heydər Əliyevin sosial-iqtisadi inkişaf strategiyasının 10 ildən artıq bir müddət ərzində cənab Prezident İlham Əliyev tərəfindən inamla davam etdirilməsi və gərgin əməyi sayəsində mümkün olmuşdur.

Cari ilin 6 ayında ümumi daxili məhsulun artımı 2,1 faiz, qeyri-neft sektorunun real artım tempi 7 faiz,inflyasiya 1,6 faiz təşkil etmişdir. Qeyri-neft sektorunun ümumi daxili məhsulda payı 56,3 faizə çatmışdır. Dövlət büdcəsinin gəlirləri 9,3 milyard manat və ya 101,6 faiz yerinə yetirilmiş, xərcləri isə 8,7 milyard manat olmuşdur.

İlk 6 ayda iqtisadiyyatın və sosial sahələrin inkişafı məqsədilə bütün maliyyə mənbələri hesabına əsas kapitala 7,6 milyard manat investisiya yönəldilmiş və bu, əvvəlki ilin müvafiq dövrünə nisbətən 3,4 faiz artmışdır. Əhalinin gəlirlərinin artması davam etmiş və ötən ilin eyni dövrü ilə müqayisədə 4,7 faiz, hər nəfərə düşən gəlirlər isə 3,3 faiz artmışdır. Yanvar-may ayları ərzində orta aylıq əmək haqqı 6,5 faiz artaraq, 438,1 manata yüksəlmişdir.

Əldə edilmiş nailiyyətlər nüfuzlu beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapmışdır. Belə ki, dünyanın ən nüfuzlu (“Fitch”, “Standard and Poors” və “Moodys”) reytinq agentlikləri bir çox inkişaf etmiş ölkələrin reytinqlərini azaltdıqları halda, Azərbaycanın kredit reytinqini yüksəltmiş, iqtisadiyyatımıza investisiya səviyyəli kredit reytinqi vermişdir.

Bununla yanaşı Dünya Bankı, Beynəlxalq Valyuta Fondu kimi təşkilatların Azərbaycan iqtisadiyyatına dair proqnozları optimist olmuşdur.

Regionların sosial-iqtisadi inkişafına dair üçüncü Dövlət Proqramı bütün bölgələrin hərtərəfli və tarazlı inkişafı sahəsində 2004-cü ildən başlanılmış məqsədyönlü siyasətin davamı olmaqla, yeni müəssisələrin və iş yerlərinin yaradılmasında, irimiqyaslı layihələrin həyata keçirilməsində mühüm rol oynayır.

Sosial sahələrin inkişafı yenə də diqqət mərkəzində saxlanılmış, 6 ay ərzində regionlarda 32 məktəb, 15 bağça, 12 səhiyyə, 6 gənclər və idman, 20 mədəniyyət və digər sosial obyekt tikilmiş və ya əsaslı təmir olunmuşdur. Hazırda 300-dən çox sosial obyektin təmir-tikintisi davam etdirilir.

Birinci altı ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Bu gün günyada, bölgədə və Avropada yaşanan iqtisadi çətinliklər fonunda iqtisadiyyatın 2,1 faiz artması çox gözəl göstəricidir. Ən sevindirici hal ondan ibarətdir ki, son illər ərzində ardıcıl olaraq qeyri-neft sektorumuz uğurla artır.

Bir qədər əvvəl qeyd etdim ki, inflyasiya Azərbaycanda 1,6 faiz təşkil edir. Xüsusilə nəzərə alsaq ki, ölkəmizə bu qədər həm daxili, həm xarici investisiyalar qoyulur, maaşlar, pensiyalar ildən-ilə qaldırılır, sovet vaxtından qalmış əmanətlər kompensasiya şəklində, MDB-də ən böyük əmsalla, ən qısa müddət ərzində insanlara qaytarılmışdır - bütün bu amillərə baxmayaraq, inflyasiyanın cəmi 1,6 faiz olması çox yüksək göstəricidir. Əhalinin pul gəlirləri isə 4,7 faiz artıb, yəni inflyasiyanı 3 dəfə üstələyir.

Bildiyiniz kimi bu il üçüncü regional inkişaf proqramı qəbul edilmişdir. Bu proqramın icrası nəticəsində artıq ilin altı ayında 65 min yeni iş yeri açılmışdır ki, onlardan 52 mini daimi iş yeridir. 2003-cü ildən bu günə qədər - bu proqramlar icra edilməyə başlayandan sonra 1 milyon 300 min iş yeri açılmışdır ki, onlardan təqribən 1 milyonu daimi iş yeridir.

Cari ildə hərbi məsələlərin həllinə xüsusi diqqət yetirilmişdir. Ordu quruculuğu prosesi uğurla gedir, orduda islahatlar dərinləşir, nizam-intizam artır. Ordumuzun döyüş qabiliyyəti yüksək səviyyədədir və gündən-günə artır.

Azərbaycan beynəlxalq siyasətlə bağlı öz mövqeyini dünyada daha da möhkəmləndirmişdir. Cənab Prezident çıxışlarında dəfələrlə vurğulamışdır ki, bizim xarici siyasətimiz açıqdır, prinsipialdır, ədalətə, beynəlxalq hüquqa söykənir. Mən bunu çox böyük iftixar hissi ilə deməliyəm ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin iyunun 24-də Avropa Şurası Parlament Assambleyasında qətiyyətli çıxışı bunu bir daha təsdiq edir. Möhtərəm Prezidentimiz sessiyada bəzi “siyasətçilərə” əsl demokratiya dərsi keçdi. Ağlın, məntiqin, cəsarətin, ən əsası diplomatiyanın necə olmasını onlara öyrətdi. Prezidentimiz qərəzli suallara verdiyi dəqiq, məntiqli cavabları ilə hətta sual verən riyakarların özlərini belə utandırdı. Milliyyəti və mənşəyi məlum olmayan antiazərbaycançı şəbəkənin hazırladığı “ssenari”nin fiyaskoya uğradığının şahidi olduq.

Ölkəmizin rəhbəri son 10 ildə Azərbaycanın keçdiyi uğurlu iqtisadi inkişaf yoluna nəzər saldı. Azərbaycanın Avropa üçün model ola biləcək dövlətə çevrildiyini diqqətə çatdırdı. Dağlıq Qarabağ münaqişəsinin həll olunmasında bu məsələyə ikili standartlarla yanaşan beynəlxalq qurumların tutduqları mövqeni açıq şəkildə pislədi.

6 ay ərzində neft-qaz sahəsində, xüsusilə “Cənub” qaz dəhlizi ilə bağlı ciddi addımlar atılmışdır. İlkin tenderlər elan edilmişdir. TANAP layihəsinin icrası demək olar ki, artıq başlamışdır. Tikintiyə hazırlıq dövrü çox uğurla gedir. “Cənub” qaz dəhlizinin təşəbbüskarı Azərbaycandır. Bu layihənin icrası nəticəsində həm Azərbaycan, həm də onun qonşuları və Avropa ölkələri böyük fayda götürəcəklər. Azərbaycan bu sahədə də liderlik keyfiyyətlərini göstərmişdir. Bu üç layihə - “Şahdəniz -2”, TANAP və TAP Avropanın enerji xəritəsini dəyişdirəcək, Azərbaycanı çox önəmli iqtisadi və enerji tərəfdaşına çevirəcək və ən vacibi Azərbaycan xalqının bundan sonra da iqtisadi və maliyyə məsələlərinin həlli sahəsində rifahını təmin edəcəkdir. Cənab Prezident vurğulamışdır ki, biz bu layihənin icrası nəticəsində bundan sonra ən azı yüz il ərzində qaz ixracatından böyük fayda götürəcəyik və Azərbaycanın dünyadakı rolu daha da artacaqdır.

Cənab Prezident çıxışında xüsusi olaraq vurğulamışdır ki, bizim enerji siyasətimiz bu gün ümumi siyasətimizin tərkib hissəsidir, eyni zamanda bütün ölkələr üçün milli təhlükəsizlik məsələsidir.

Hörmətli Prezidentimizin çox uzaqgörən və müdrik siyasətinin bəhrəsi olaraq Azərbaycan öz enerji təhlükəsizliyini bir neçə il bundan əvvəl təmin etmiş və bu gün başqa ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsinə köməklik göstərir. Ölkəmizdə çox gözəl ab-hava vardır. Çox gözəl ictimai-siyasi vəziyyət müşahidə olunur. Sabitlik tam şəkildə təmin edilir. Sabitliyin qarantı Azərbaycan xalqıdır və görülmüş işlərdir. Azərbaycan xalqının rifahı, cəmiyyətdə bərqərar olan ədalət, o cümlədən sosial ədalət və xoşagəlməz hallarla mübarizə bu müsbət meyilləri daha da gücləndirir.

Nəqliyyatla bağlı məsələlər də öz həllini tapır. Bakı-Tbilisi-Qars dəmir yolunun Azərbaycana bağlı olan hissəsinin tikintisinin bu ilin sonuna qədər başa çatdırılması və Ələt Beynəlxalq Ticarət Limanının birinci mərhələsinin istismara verilməsi nəzərdə tutulur.

Məcburi köçkünlərin problemləri həmişə olduğu kimi bu il də diqqət mərkəzində olmuşdur. Bu il də ən azı 20 min köçkün yeni evlərə, mənzillərə köçürüləcəkdir. Bu proses artıq uğurla gedir. Həm Bakıda, həm bölgələrdə yeni yüksək keyfiyyətli və bütün şəraiti olan yaşayış massivləri tikilir, yeni qəsəbələr salınır.

6 ayda həm Bakıda, həm bölgələrdə iki milyondan çox ağac əkilmişdir. Cənab Prezident demişdir: “Mən həmişə deyirəm ki, ekologiya ilə bağlı məsələlər daimi proses olmalıdır. Biz nə qədər çox ağac əksək, o qədər də insanların sağlamlığına xidmət etmiş oluruq”.

Hamınız canlı şahidsiniz ki, ilin 12 ayında bizim şəhərdə ağac əkini davam etdirilir və yüksək səviyyədə ağaclara qulluq edilir. Bu ilin 6 ayında şəhərimizdə 728 ədəd ağac və 5500 ədəd müxtəlif gül kolları əkilmişdir.

Yəqin çoxlarınız görmüsünüz ki, iyul ayı olmasına baxmayaraq 1 May küçəsinin “Kürmost” massivində 170 ədəd şam, 170 ədəd Alyandra ağaclarının əkininə başlanılmışdır.

Onu da qeyd edim ki, hazırda Heydər Əliyev prospektində böyük bir nümunəvi məhəllə tikilir və Fariz Eynullayev küçəsi 15 saylı binanın qarşısındakı məhəllədə xeyir-şər mərasimləri keçirmək üçün hər cür şəraiti olan binanın tikintisi başa çatmaq üzrədir. Beləliklə şəhərdə nümənəvi məhəllələrin sayı 24, xeyir-şər mərasimləri üçün binaların sayı 19-a çatdırılmışdır. Bu işləri biz bundan sonra da davam etdirəcəyik.

Bizim bütün uğurlarımızın əsas səbəbi ölkəmizdə aparılan iqtisadi və siyasi islahatlarla yanaşı sabitlik, əmin-amanlıqdır. Ölkə daxilində xalqla iqtidar arasında yaranmış birlik, vətəndaş həmrəyliyidir. Xarici investorların Azərbaycana çox etibarlı ölkə kimi baxmalarıdır. Biz tam əminik ki, Prezidentimiz cənab İlham Əliyevin düşünülmüş və milli maraqlar əsasında qurulmuş siyasəti Azərbaycana növbəti illərdə də böyük uğurlar gətirəcəkdir. Azərbaycanın bölgədəki mövqelərini daha da möhkəmləndirəcək, baş verən proseslərə təsir imkanlarını daha da artıracaqdır.

İcazə verin çıxışımın sonunda ulu öndər Heydər Əliyev kursunun layiqli davamçısı, hörmətli Prezidentimiz cənab İlham Əliyevi əmin edim ki, ölkəmizin işıqlı gələcəyi naminə şirvanlılar həmişə olduğu kimi, bundan sonra da var qüvvə ilə çalışacaq, daim ona dəstək olacaqlar.

Sonra Şirvan şəhər İcra Hakimiyyətinin Sosial-iqtisadi inkişafının təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri, icra hakimiyyəti başçısının müavini Elman Abbasov «Şirvan şəhər İcra Hakimiyyətinin 2014-cü ilin I yarımilində şəhərin sosial-iqtisadi inkişafı sahəsində gördüyü işlər barədə» məruzə etdi. Məruzəçi dedi ki, qeyd etmək lazımdır ki, ölkəmizin iqtisadi inkişafının təmin olunmasında Şirvan şəhərinin də özünəməxsus xüsusi çəkisi olmuşdur.

Belə ki, 2014-cü ilin birinci yarımilində iqtisadiyyatın bütün sahələrində istehsal olunan məhsul və xidmətlərin həcmi 213,4 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 13,4 faiz çoxdur .

Ümumi məhsul buraxılışında 80,8% xüsusi çəkiyə malik olan sənayedə 172,5 milyon manat məhsul istehsal edilmişdir. Sənayedə istehsal olunan məhsulun 43,2 faizi dövlət, 56,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür.

Hesabat dövründə şəhərdə 150,4 min ton neft, 9,3 milyon m3 qaz və 2948,9 milyon kvt/saat elektrik enerjisi istehsal edilmişdir. Tikinti müəssisələri tərəfindən 7,6 milyon manat həcmində tikinti-quraşdırma işləri görülmüşdür.

Nəqliyyat müəssisələri tərəfindən sərnişin və yükdaşımaları ötən ilin müvafiq dövrü ilə müqayisədə müvafiq olaraq 6,1 faiz və 4,2 faiz artmışdır.

Əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsi xeyli yaxşılaşmışdır.

**(ardı 3-cü səhifədə)**

# ŞƏHƏRİMİZ 2014-CÜ İLİN 6 AYINDA

(əvvəli 2-ci səhifədə)

Abunəçilərin genişzolaqlı internet xidmətləri ilə təmin olunması məqsədilə 2014-cü ilin 6 ayı ərzində 12 ədəd 48 portluq DSLAM avadanlığı quraşdırılıb və əhalinin istifadəsinə verilmişdir. Bunun nəticəsində 576 abunəçi yüksək sürətli internet xidməti ilə təmin olunmuşdur. Bu dövr ərzində ümumi uzunluğu 2500 metr olmaqla magistral kabellər əsaslı təmir olunmuş və köhnə tipli müxtəlif markada ümumi uzunluğu 1400 metr kabellər yenisi ilə əvəz olunmuşdur. 2014-cü ilin 6 ayı ərzində 267 ədəd telefon çəkilərək ümumi istifadə tutumu 10523 ədədə çatdırılmışdır.

Şirvan şəhərində fəaliyyət göstərən Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Telemexanika" və "Araz" zavodlarında bir sıra əhəmiyyətli tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Silahlı Qüvvələrini NATO dövlətlərinin standartlarına uyğun yeni növ məhsullarla təmin etmək məqsədi ilə Telemexanika zavodunda sahəsi 4 min kv metrə yaxın istehsal sahəsi tikilmişdir.

5 saylı istehsal korpusu (8640 m2 ), köməkçi sahələr (785 m2 ) tam təmir edilmişdir. Hal-hazırda həmin sahələrdə yeni məhsulların istehsalı üçün xarici dövlətlərdən gətirilmiş avadanlıqların sazlanması və texnalogiya üzrə mütəxəssislərin öyrədilməsi işləri davam edir. Bu sahələrdə bir neçə adda məhsulların istehsalı nəzərdə tutulmuşdur.

"Şirvan Araz Zavodu"nda artıq 2 yeni istehsal sahələri (Qartal və Maral sahələri) avadanlıqları ilə birlikdə tam hazır vəziyyətə gətirilmişdir. Bundan başqa zavodun 1 yeni istehsal sahəsinin (Aşrım) tikintisi tam başa çatdırılmışdır. Xarici ölkələrdən gətirilmiş xüsusi avadanlıqların və yeni texnologiyaların quraşdırılması mütəxəssislər tərəfindən sürətlə davam etdirilir.

Əhalinin təbii qaza olan tələbatını ödəmək məqsədilə 2014- cü ilin I yarımili ərzində şəhərin qaz şəbəkəsində təmir və yenidənqurma işləri aparılmış, istismara yararsız qaz kəmərləri yenisi ilə əvəz olunmuşdur.

Görülən işlər çərçivəsində Köhnə şəhər, Bağ evləri, Kənd evləri, Çılpaqlı yaşayış massivlərində, 1317 p/m müxtəlif diametrli qaz kəmərləri həyətyanı sahələrdən kənara çıxarılaraq təmir edilmiş və yerüstü çəkilmişdir. Eyni zamanda 219 qaz sayğacı həyətyanıı sahələrdən kənara çıxarılaraq yeni xəttin üzərinə quraşdırılmışdır. Şəhərin Naxçıvan küçəsində 1368 pm müxtəlif diametirli yeni qaz kəmərləri çəkilmişdir. Bundan əlavə 1015 ədəd "Sənayecihaz" istehsalı olan qaz sayğacı yenisi ilə əvəz olunmuş, 269 vətəndaşın mənzilinə qaz sayğacı quraşdırılaraq abonent qeydiyyatına alınmışdır. İstehlakçıların qaz təminatının normallaşdırılması üçün şəbəkədə tənzimləmə işlərinin aparılması təmin edilərək 11 ədəd qaz tənzimləyici quraşdırılmışdır.

Əhalini elektrik enerjisi ilə səmərəli təmin etmək məqsədilə Şirvan şəhər Elektrik şəbəkəsi tərəfindən 2014-cü ilin I yarımili ərzində 15500 metr naqil, 300 metrə yaxın kabel xətləri çəkilmiş, 3 ədəd müxtəlif gücdə transformator y/stansiyası quraşdırılaraq istifadəyə verilmiş, 5 y/stansiya əsaslı təmir olunmuşdur.

Şəhər əhalisinə sudan istifadəni yaxşılaşdırmaq məqsədi ilə 2014-cü ilin I yarımili ərzində mərkəzi və məhəlləndaxili su və kanalizasiya xətlərində əsaslı və cari təmir işləri aparılmış, şəhərin S.Vurğun, M.Mirzəyev, T.Ələkbərov, N.Tusi və M.Əsədov küçələrində, məhəllədaxili su xətlərində 313 pm 75-150 mm boru ilə su xətləri dəyişdirilmişdir. Bundan başqa şəhərin M.Aydınov küçəsində su çatmayan vətəndaşların su təminatının yaxşılaşdırılması üçün 352 pm plastik, 150 pm metal boru ilə su xətti çəkilir. Ümumi qurğu ərazisində çirkab və tullantı sularının axıdılmasını tam təşkil etmək məqsədi ilə yeni artezian tipli nasos quraşdırılmışdır.

Təhsilin keyfiyyətinin yüksəkdilməsi, istedadlı şagirdlərin yetişdirilməsi istiqamətdə müxtəlif tədbirlər həyata keçirilmişdir.

Belə ki, əlavə fənn olimpiadalarının məktəb, I və II şəhər turları keçirilmişdir.12 yanvar 2014-cü il tarixdə II şəhər turunun 14 nəfər qalibləri, 16-18 mart 2014-cü il tarixdə Bakı şəhərində təşkil olunmuş respublika mərhələsində iştirak edərək Azərbaycan dili və ədəbiyyat fənni üzrə 9 nömrəli tam orta məktəbin IX sinif şagirdi İbrahim Əliyev və 20 nömrəli tam orta məktəbin XI sinif şagirdi Ofeliya Süleymanova IV yeri tutmuşlar. Beynəlxalq Türkcə Olimpiadasının Azərbaycan finalında isə 16 nömrəli tam orta məktəbin X sinif şagirdi Ruslan Əhmədov respublika ikincisi olmuşdur.

2013-2014-cü tədris ilində şəhər ümumtəhsil məktəblərinin IX siniflərini 987 nəfər bitirmiş, onlardan 963 nəfəri ümumi orta təhsil haqqında şəhadətnamə, o cümlədən 20 nəfəri fərqlənmə şəhadətnaməsi almışdır.




Ümumtəhsil məktəblərinin XI siniflərini 646 nəfər bitirmiş, onlardan 623 nəfərinə tam orta təhsil haqqında attestat verilmiş, digər 10 nəfər isə qızıl-gümüş medala namizəd göstərilmişdir.

Gənclərin asudə vaxtlarının səmərəli təşkil olunması istiqamətində gənclər və idman idarəsi tərəfindən bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, 2014-cü ilin I yarımili ərzində 19 daxili tədbirdə 2908 nəfər,10 respublikamiqyaslı tədbirdə isə 118 nəfər yeniyetmə və gənc iştirak etmişdir.

Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən respublikamiqyaslı yarışlarda 452 nəfər yeniyetmə və gənc şəhərimizi təmsil edərək 31 nəfər I yerə, 21 nəfər II yerə, 29 nəfər isə III yerə layiq görülmüşdür.

Dövlət Proqramına uyğun olaraq Gənclər evinin tikintisi 2014-cü ildə də davam etdirilir.

Qeyd etmək lazımdır ki, şəhər iqtisadiyyatının dinamik inkişafı əhalinin sosial vəziyyətinin daha da yaxşılaşmasına, son nəticədə onların alıcılıq qabiliyyətlərinin artmasına səbəb olmuşdur. Belə ki, hesabat dövründə pərakəndə əmtəə dövriyyəsi 279,8 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 10 faiz çoxdur.

İqtisadiyyat və Sənaye Nazirliyi Sahibkarlara Kömək Milli Fondunun vəsaiti hesabına 2014-cü ilin I yarımili ərzində Şirvan şəhəri üzrə 7 layihə həyata keçirilmiş, 93,5 min manat kredit verilmişdir. Bu da şəhərdə 8 yeni iş yerlərinin açılmasına zəmin yaratmışdır.

"Aqrolizinq" ASC-nin Şirvan Regionlararası Təchizat Bazası tərəfindən kənd təsərrüfatı məhsulları istehsalçılarına 2 milyon 914 min manat həcmində 147 lizinq xidməti göstərilmişdir.

2014-cü ilin I yarımilində Şirvan şəhər üzrə dövlət büdcəsinin yerli gəlirlərinin proqnozu 7 milyon 901 min manata qarşı 7 milyon 989 min manat və ya 101,1 faiz yerinə yetirilərək proqnozda nəzərdə tutulduğundan 87,7 min manat çox vəsait daxil olmuşdur.

2014-cü ilin I yarımilində daxil olmuş gəlirlərin məbləği 2013-cü ilin eyni dövrü ilə müqayisədə 377,1 min manat və ya 5,0 faiz çox olmuşdur.

Aztəminatlı əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması həmişə diqqət mərkəzində olmuşdur.

Belə ki, 2014-cü ilin I yarımili ərzində Əhalinin Sosial Müdafiəsi Mərkəzi tərəfindən pensiya və müavinətlərin ödənilməsi məqsədilə 2 milyon 797 min manat vəsait xərclənmişdir. ƏSMM tərəfindən 1470 ailənin 5643 üzvünə 1 milyon 319 min 398 manat ünvanlı sosial yardım ödənilmişdir.

Şirvan şəhər Dövlət Sosial Müdafiə Fondunun məcburi dövlət sosial sığorta haqları üzrə daxil olmaları 2 milyon 401 min manat olmuş, DSMF-dan pensiya və müavinətlərin ödənilməsi üçün 7 milyon 770,0 min manat vəsait ayrılmışdır. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərdən isə hesabat dövründə 333.6 min manat məcburi dövlət sosial sığorta haqqı toplanmışdır ki, bu da 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 45,4 min manat və ya 15,8 faiz çoxdur.

Umumilikdə şöbənin məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaları 2013-cü ilin I yarımili ilə müqayisədə 395,6 min manat və ya 19,7 faiz artmışdır. Hesabat dövründə Şöbənin ümumi xərcləri 10 milyon 481 min manat olmuşdur ki , bunun da 99 faizi, yəni 10 milyon 390 min manatı əhalinin pensiya və müavinətlərinin maliyyələşdirilməsinə yönəldilmişdir. Bu da ötən ilin müvafiq dövrünə nisbətən 1 milyon 360 min manat və ya 15,1 faiz çoxdur.

Şəhərin sosial-iqtisadi inkişaf tempinin ilbəil sürətlənməsi əhalinin məşğulluq imkanlarını daha da genişləndirir. Belə ki, 2014-cü ilin I yarımilində Məşğulluq Mərkəzinə 766 nəfər işaxtaran vətəndaş müraciət etmişdir. Müraciət edənlərdən 499 nəfəri işlə təmin olunmuş, 41 nəfərinə isə işsiz statusu verilmişdir. İşlə təmin olunanlardan 183 nəfəri qadınlardır.

Əvvəlki illərdə olduğu kimi 2014-cü ilin I yarımili ərzində şəhər ərazisində tikinti, quraşdırma və abadlıq işləri davam etdirilmişdir.

Belə ki, Nazirlər Kabinetinin sərəncamı ilə ayrılmış vəsait hesabına Bayramlı qəsəbəsi M.Ə.Sabir küçəsi 6 saylı ünvanda qəzalı vəziyyətdə olan 2 mərtəbəli 12 mənzilli yaşayış binası sökülərək yerində yeni 2 mərtəbəli 12 mənzilli yaşayış binasının tikinti işləri davam etdirilir.

Heydər Əliyev Fondu hesabına şəhərin M.Ə.Rəsulzadə küçəsində "100 çarpayılıq körpələr evi-uşaq bağçası"nın tikintisinə başlanılmışdır. Hal-hazırda körpələr evi-uşaq bağçasının tikinti işləri davam edir.

Şəhərin Xəqani 1, 2 və 88 saylı binaların qarşısında "xeyir-şər" mərasimi yeri tikilərək bina sakinlərinin istifadəsinə verilmişdir. H.Əliyev küçəsi 44, 46, 1b, Xəqani 5 saylı binaların qarşısındakı nümunəvi məhəllədə 5850m2 sahədə abadlıq işlərinə başlanılmışdır. İ.Qayıbov adına istirahət parkının giriş hissəsi yenidən qurulmuşdur. 20 Yanvar küçəsində 14 ədəd ticarət obyektində müasir memarlıq üslubunda yenidənqurma işləri başa çatdırılmışdır.

Şəhərin G.Şıxbalaoğlu küçəsi ilə Mehmandarov küçələrinin kəsişməsində yeni nümunəvi məhəllə salınmışdır. Mehmandarov küçəsində səkilər tamet tavalarla üzlənmişdir. G.Şıxbalaoğlu küçəsində dəmir yolu vağzalının qarşısında təmir-abadlıq işləri başa çatdırılmışdır. H.Əliyev parkında təmir-abadlıq işlərinə başlanılmışdır. Hal-hazırda sahədən 1400 m2 yararsız tamet döşəmələr sökülmüş, 800m2 sahəyə yeni tamet tavalar döşənmiş, fontan kompleksinin yenidən qurulma işlərinə başlanılmışdır. Xəqani, M.Ə.Rəsulzadə, S.Vurğun, F.Eynullayev və Z.Hacıyev küçələrində 100 ədəd müasir tipli işıq dirəkləri quraşdırılmışdır. 2014-cü ilin 6 ayı ərzində şəhərin müxtəlif küçələrindəki yaşayış binalarının ümumilikdə 5350 m2 dam örtükləri əsaslı təmir edilmişdir.

2014-cü ilin I yarımili ərzində şəhər ərazisinə ümumilikdə 22 min kv.m-dən artıq məhəllədaxili yollara asfalt-beton örtük vurulmuşdur.

Şəhərdə 5 saylı Ərazi Vergilər İdarəsi və DSMF-nun Şirvan şəhər şöbəsi üçün yeni inzibati binaların tikintisi davam etdirilir.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən əsasən qaçqınlar və məcburi köçkünlərin məskunlaşdığı Xəqani küçəsində Humanitar və İqtisadiyyat Kollecinin tələbə yataqxanasının və H.Əliyev prospektində yerləşən keçmiş Avtomobil məktəbinin yataqxanasının əsaslı təmir işlərinə başlanılmışdır. Hal hazırda tikinti işləri davam etdirilir.

2014-ci ilin I yarımilində Şirvan Bələdiyyəsi tərəfindən xeyli tikinti-təmir, abadlıq, quruculuq işləri görülmüşdür. L-t.İbrahimov küçəsi 14 saylı binaların qarşısında nümunəvi məhəllədə xeyir-şər mərasimi yeri tikilərək sakinlərin istifadəsinə verilmişdir. S.Vurğun küçəsində dəmir yolundan magistral yola qədər səkinin tikintisi işləri davam edir.

Şəhərin küçə və meydanlarında genişmiqyaslı yaşıllaşdırma işləri də davam etdirilmişdir. Yaşıllıq sahələrinin artırılması, gül-çiçək kollarının, ağacların əkilməsi, suvarılması, aqrotexniki qaydada qulluq göstərilməsi kimi çox mühüm işlər görülmüşdür.

2014-cü ilin I yarımili ərzində şəhər ərazisində 728 ədəd ağac, 5500 ədəd mövsümü güllər əkilmişdir. Kürmost yaşayış massivində 170 ədəd iri Şam ağacı və 170 ədəd Aylandıra ağaclarının əkilməsinə başlanmışdır. Küçələrin fasiləsiz işıqlanması, məişət tullantılarının vaxtında daşınması təmin edilmişdir.

Şirvan şəhərinin sosial-iqtisadi inkişafının artan templə irəliləməsi davam etdirilmiş, nəticədə şəhərimiz respublikanın ən gözəl şəhərlərindən birinə çevrilmişdir.

İcazə verin çıxışımın sonunda Sizi əmin edim ki, Şirvan şəhər İcra Hakimiyyəti həmişə olduğu kimi bundan sonra da cənab Prezident tərəfindən qarşıya qoyulan vəzifələrin icrası istiqamətində öz səylərini davam etdirəcək, hörmətli başçımız Mərdan Camalovun təşkilatçılığı və tələbkarlığının nəticəsi olaraq Şirvan şəhərinin sosial iqtisadi inkişafı daim diqqət mərkəzində saxlanılacaq və qarşıya qoyulmuş bütün məsələlərin icrası son nəticədə şəhər əhalisinin firəvan və rahat yaşamasına, sosial vəziyyətinin daha da yaxşılaşmasına xidmət edəcəkdir.

Məruzə ətrafında müzakirələrdə «Araz» zavodunun direktoru İlqar Qurbanov, 3 saylı Əraizi Ekologiya və Təbii Sərvətlər şöbəsinin rəisi Səxavət Əliyev çıxış etdilər.

Sonda Şirvan şəhər İcra Hakimiyyətinin başçısı M.T.Camalov hesabat yığıncağına yekun vurdu.

**F.RƏHİMOV,**
**Ə.AXUNDOV (foto)**

# MİLLİ MƏTBUATIMIZIN 139 İLLİYİ QEYD OLUNDU

**Şirvan şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycan Milli Mətbuatının 139 illiyinə, 22 iyul Milli Mətbuat Gününə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbiri şəhər icra hakimiyyəti başçısının müavini E.Abbasov açmışdır. E.Abbasov peşə bayramı münasibətilə jurnalistləri təbrik edərək demişdir ki, iyul ayının 22-si Azərbaycanda Milli Mətbuat Günü kimi qeyd olunur. Bu il zəngin tarixi ənənələrə malik Azərbaycan milli mətbuatının yaranmasının 139-cu ili tamam olur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Azərbaycan Milli Mətbuatının yaranmasının ildönümlərinin, yubileyinin keçirilməsinə xüsusi önəm verir. Mətbuata, mətbuat işçilərinə, jurnalistlərə xüsusi diqqət və qayğı göstərir. Bu diqqət və qayğının təzahürüdür ki, Milli Mətbuat Günü respublikamızın hər yerində olduğu kimi, Şirvan şəhərində də hər il qeyd olunur. Bu günki tədbirimiz də Milli Mətbuatımızın yaranmasının 139-cu ildönümünə - 22 iyul Milli Mətbuat Gününə həsr olunur.

Mən bu gün münasibətilə yerli "İşıq" qəzetinin əməkdaşlarını, Sizi və Sizin simanızda respublikamızın bütün mətbuat işçilərini Azərbaycanda Milli Mətbuatın yaranmasının 139-cu ildönümü münasibətilə səmimi qəlbdən təbrik edirəm və hər birinizə xoş arzularımı yetirirəm.

Bildiyiniz kimi çox zəngin və şərəfli inkişaf yolu keçmiş Azərbaycan Milli Mətbuatının əsasını böyük maarifçi Həsən bəy Zərdabi qoymuşdur. Məhz onun rəhbərliyi ilə 1875-ci ilin iyulun 22-dən başlayaraq "Əkinçi" qəzeti nəşr edilməyə başlamışdır.

Azərbaycan Milli Mətbuatı yarandığı gündən həmişə qabaqcıl ideyaların carçısı olmuş, dövrün, zamanın, ictimai-siyasi həyatın güzgüsünə çevrilmişdir. Milli şüurun, yeni ideyaların, mədəniyyətin inkişafında milli mətbuatımız mühüm rol oynamışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasında, ədəbi dilimizin inkişafında, ictimai şüurun formalaşmasında mətbuat bu gün də müstəsna xidmətlər göstərir.

Məhz buna görə ulu öndərimiz,



ümummilli liderimiz Heydər Əliyev respublikamıza rəhbərliyi dövründə milli mətbuatımıza həmişə diqqət və qayğı göstərirdi. Onun qayğısı sayəsində milli mətbuatın inkişafına mane olan məhdudiyyətlər aradan qaldırılmışdır. 1998-ci ilin avqust ayının 6-dan senzura ləğv edilmiş, qəzet və jurnalların sayı, dövriyyəsi artmış, maddi-texniki bazası möhkəmlənmişdir. Bu gün də mətbuata münasibətdə Heydər Əliyev siyasəti və ənənələri möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Mətbuatın inkişafı üçün lazımi şərait yaradılır. Dövri mətbuatın say və keyfiyyəti xeyli artmışdır. Mətbuat işçilərinin, jurnalistlərin təşkilatlanması üçün münbit şərait yaradılmışdır. Azərbaycan Prezidenti cənab İlham Əliyevin qayğısı nəticəsində respublikamızda Mətbuat Şurası yaradılmış, Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu təsis edilmişdir. Mətbuatın fəaliyyət göstərməsi üçün respublikamızda hər cür şərait yaradılmışdır. Vaxtaşırı olaraq respublikamızda fədakar jurnalistlərin əməyi yüksək qiymətləndirilir. Nüfuzlu, peşəkar jurnalistlərə fəxri adlar, orden və medallar verilir.

Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun qərarı ilə respublikanın gündəlik çıxan aparıcı qəzetlərinin iqtidar və ya müxalifət yönümlü olmasından asılı olmayaraq hər birinə 30-50 min manat məbləğində maddi yardım göstərilməsi Azərbaycan dövlətinin milli mətbuatın inkişafına diqqət və qayğısının göstəricisidir.

Bildiyiniz kimi 2013-cü ilin iyulun 11-də Bakıda Azərbaycan jurnalistlərinin VI qurultayı keçirilmişdir. Qurultayda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubu oxunmuşdur. Qurultayda "Azərbaycan jurnalistlərinin peşə davranışı qaydaları"na və "Azərbaycan Mətbuat Şurasının Nizamnaməsi"nə əlavə və dəyişikliklər edildi. Dəyişikliklərə əsasən qurum qəzet, jurnal və informasiya agentlikləri ilə yanaşı internet media vasitələrinin fəaliyyətindəki narazılıq doğuran məqamlardan şikayətləri də araşdıracaqdır. 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin tapşırığı ilə Bakının Səbayıl rayonunda jurnalistlər üçün inşa edilən yeni yaşayış binasındakı mənzillər püşkatma yolu ilə jurnalistlərə verilmişdir. Onların mənzil şəraiti yaxşılaşdırılmışdır.

Hazırda da jurnalistlər üçün daha bir bina inşa edilir.

Jurnalistlərə dövlət qayğısı, eyni zamanda ölkəmizdə və şəhərimizdə sosial ədalət və şəffaflığın təmin edilməsinə xidmət edir. Qloballaşma və informasiya əsri bu şəffaflığın hər bir idarə və müəssisədə, kollektivdə də təmin olunmasını tələb edir. Bu məqsədlə dövlət qurumları ilə mətbuat arasında normal, işgüzar münasibətlər qurulur. Bu münasibətlərin daha sağlam, işgüzar əsaslar üzərində qurulması üçün jurnalistlər bundan sonra da öz nüfuzlarını qorumalı, peşəkarlıq səviyyələrini artırmalı, qərəzçiliyə yol verməməli, ədalətli, obyektiv mövqe nümayiş etdirməlidirlər. Mətbuatda və kütləvi informasiya vasitələrində qərəzsizlik, obyektivlik əsas meyar olmalıdır. Jurnalistlərin əsas diqqəti milli məsələlərin, problemlərin həllinə, dövlətimizin möhkəmlənməsinə, ərazi bütövlüyünün təmin edilməsinə, oxucularda milli şüurun və yüksək vətənpərvərlik ruhunun formalaşmasına xidmət etməlidir.

Mətbuat işçiləri, xüsusilə yerli "İşıq" qəzetinin əməkdaşları və bölgə müxbirləri öz fəaliyyətlərində bu mühüm əhəmiyyət kəsb edən məsələlərə daha həssaslıqla yanaşmalıdırlar. Şəhərin ictimai-siyasi həyatı, sosial-iqtisadi inkişafı, əldə olunan uğurlar dövri mətbuatda daha dolğun, geniş əks etdirilməli, obyektiv işıqlandırılmalıdır. Şəhər əhalisində obyektiv ictimai rəy formalaşdırılmalıdır. Siz jurnalistlər bu istiqamətdə fəaliyyətinizi daha da gücləndirməlisiniz. İctimai-siyasi hadisələrin, keçirilən tədbirlərin, görülən işlərin şərhini verərkən bitərəf, obyektiv yanaşmanın təmin edilməsi əsas göstəricilərdən biri olmalıdır.

Əminəm ki, mətbuat işçiləri, şəhərimizdə fəaliyyət göstərən jurnalistlər qarşıda duran bu vəzifələrin yerinə yetirilməsi sahəsində bundan sonra da daha inamla çalışacaqlar. Sizə bu müqəddəs vəzifələrin yerinə yetirilməsində daha böyük nailiyyətlər və uğurlar arzu edirəm.

Sizi Milli Mətbuatımızın 139-cu ildönümü və 22 iyul - Milli Mətbuat Günü münasibəti ilə ürəkdən təbrik edirəm.

«İŞIQ» qəzetinin baş redaktoru, Əməkdar jurnalist M.Xəlilov, «Azərbaycan» qəzetinin bölgə müxbiri S.Cavadov, «Xalq qəzeti»nin bölgə müxbiri Səməd Hüseynoğlu çıxış edərək göstərilən diqqət və qayğıya görə ölkəmizin başçısına, şəhər rəhbərliyinə təşəkkür etdilər.

Şirvan şəhər İcra Hakimiyyəti başçısının müavini E.Ababsov tədbiri yekunlaşdırdı. Şirvan şəhər İcra Hakimiyyəti başçısı M.T.Camalov adından jurnalistlərə pul mükafatları təqdim etdi.

**«İŞIQ»**

**Ə.AXUNDOV (foto)**

## Allah rəhmət eləsin

Şəhər İcra hakimiyyətinin kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«İŞIQ» qəzeti redaksiyasının kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhər Mərkəzi Xəstəxanasının baş həkimi Fərhad Səfərov və başçılıq etdiyi kollektiv Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan Müalicə-Diaqnostika Mərkəzinin rəhbərliyi və əmək kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bayramlı qəsəbəsi üzrə icra nümayəndəsi Novruz Mirzəyev Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhər Mədəniyyət və Turizm şöbəsinin müdiri Əziz Abbasov və şöbənin kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhər Təhsil şöbəsinin müdiri Paşa Nəbiyev və şöbənin kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

CTS Aqro MMC-nin sədri Cahangir Həsənov, baş direktoru Cavid Muxtarov və Şirvan Pambıq Emalı Zavodunun kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azər Quliyev Şirvan şəhər Gənclər və İdman İdarəsinin kollektivi adından Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Müdafiə Sənayesi Nazirliyinin Təhlükəsizlik və Mühafizə İdarəsinin 9 saylı komandasının şəxsi heyəti Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

«İntegris» MMC-nin rəhbərliyi və kollektivi Şirvan şəhər İcra Hakimiyyətinin başçısı Mərdan Camalova atası

**TALIB CAMALOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Möhsüm Xəlilov və Fəxrəddin Rəhimov Eldar Qəmərliyə qardaşı

**SALEHİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Şirvan şəhər Tarix-diyarşünaslıq muzeyinin kollektivi mədəniyyət və turizm şöbəsinin inspektoru Eldar Qəmərliyə qardaşı

**SALEHİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Şirvan şəhər Heydər Əliyev Mərkəzinin kollektivi mədəniyyət və turizm şöbəsinin inspektoru Eldar Qəmərliyə qardaşı

**SALEHİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.



«Qızıl gül» uşaq bağçasında 75 nəfər uşaq tərbiyə alır. Burada körpə balalar üçün hər cür şərait yaradılmışdır. Kiçik yaş qrupunda 15 nəfər var. Nazilə Məmmədova, Nigar Əliyeva, Hicran Nəsirova uşaqlara qayğı və diqqətlə yanaşırlar.

Şəkildə: tərbiyəçi köməkçisi H.Nəsirova Səbuhi Əhmədli (öndə), Tərlan və Təhminə Məmmədli, Tərlan İbrahimli, Adil Süleymanov ilə növbəti məşğələ zamanı.

**Foto Ə.Axundovundur.**

## ELAN!

**Şirvan şəhər ərazisində mövcud olan bütün hüquqi və fiziki şəxslərin nəzərinə!**

"Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 20 iyun 2014-cü il tarixli, 987-İVQD nömrəli Azərbaycan Respublikasının Qanununa əsasən Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 190-cı maddəsində Statistika müşahidələrinin keçirilməsi üçün zəruri olan məlumatların təqdim edilməməsinə və ya vaxtında təqdim edilməməsinə, yaxud hesabatların təhrif edilməsinə görə cərimə sanksiyası **üç yüz manatdan yeddi yüz manatadək** müəyyənləşdirilmişdir.

Sizdən xahiş edirik ki, hesabat intizamına ciddi əməl edəsiniz.

**Şirvan şəhər Statistika idarəsinin rəhbərliyi**

## FƏAL ŞAGİRDLƏRİMİZ GÖY GÖLDƏ

**Məktəbimizdə yaxşı oxuyan, idmanda, ictimai işlərdə fəal olan şagirdlərimiz çoxdur.**

X sinif şagirdləri Rəşid Rəhimov, İqrar Şirməmmədov, VIII sinif şagirdi Anar Məmmədli belələrindəndir. Bu şagirdlər intizamlılıqları ilə də nümunədirlər. Bir neçə gün öncəsi həmin şagirdlər Şirvan şəhər Gənclər və İdman İdarəsinin xətti ilə Azərbaycanın səfalı güşələrindən olan Göy göldə 10 gün dincəlmişlər. Onlar digər məktəblərimizdən olan həmyaşıdları ilə istirahət etməklə yanaşı maraqlı tədbirlərin də iştirakçıları olmuşlar. Şagirdlərimiz istirahətlərinin maraqlı və şən keçdiklərini söyləmişlər. Bu şəraiti yaratdıqlarına görə onlar 4 №-li məktəb, şəhər gənclər və idman idarəsi rəhbərliyinə razılıqlarını bildirmişlər.

**Əbil ƏHMƏDOV,**
**4 nömrəli tam orta məktəbin müəllimi**

## ETIBARSIZDIR

Şeydayev Eynulla Rasim oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Nəsirov Ayaz Ramiz oğluna məxsus şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Abasova Günel Allahverdi qızına məxsus doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:
M.M.XƏLİLOV

Təsisçilər:
Şirvan şəhər İcra Hakimiyyəti başçısının aparatı və "İşıq"qəzetinin jurnalist kollektivi

Müəllifin və redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər

Materiallar redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmişdir

Qəzet "OL"MKPT MMC-də ofset üsulu ilə çap olunmuşdur.

Telefonlarımız:
Baş redaktor: 6-06-60
Redaktor müavini: 6-19-18

Ünvanımız:
Şirvan şəhəri,
İ.İ.Qayıbov küçəsi 16,
Şəhadətnamə №161
İndeks: 66858
Tiraj: 1200